*Global Spectrum of Research and Humanities*
*ISSN: 3007-9136*
*Vol. 2 No. 5 (2025): Winter*

# İslam dinində humanizmin: əsaslari, tarixi tətbiqləri və müasir perspektivlər

[1] **Zamin Babazade**
https://doi.org/10.69760/gsrh.0250205002

**Xülasə:**
Bu məqalədə İslam dinində humanizmin əsasları, onun Qurani-Kərim və Sünnədəki yeri, tarixi tətbiqləri və müasir dövrdəki əhəmiyyəti araşdırılır. İslamın təməl prinsipləri olan barış, sülh və ədalət insan münasibətlərində hoşgörünü mühüm dəyər kimi ön plana çıxarır. Bu çərçivədə hoşgörünün fərdi həyatdakı əxlaqi davranış normalarına təsiri, ictimai münasibətlərin tənzimlənməsindəki rolu və beynəlxalq müstəvidə qlobal barışın təmin olunmasına verdiyi töhfələr təhlil olunur.
Məqalənin məqsədi İslam mədəniyyətində humanist dəyərlərin formalaşmasını, müxtəlif dövrlərdə digər din və mədəniyyətlərlə yanaşı yaşama təcrübəsini və bu təcrübənin müasir dövrdə dinlərarası dialoq təşəbbüslərinə təsirini müəyyənləşdirməkdir.
Tədqiqatda müqayisəli-tarixi metoddan, eləcə də təhlil və sintez üsullarından istifadə edilmiş, həm ilkin dini mənbələr (Qurani-Kərim və hədislər), həm də İslam sivilizasiyasının müxtəlif dövrlərinə aid elmi araşdırmalar nəzərdən keçirilmişdir.
Nəticədə müəyyən olunmuşdur ki, İslamda hoşgörü anlayışı yalnız dini-mənəvi bir dəyər deyil, həm də hüquqi-sosial münasibətlərin əsasını təşkil edir və müasir dövrdə qlobal barış və qarşılıqlı anlaşma üçün mühüm əhəmiyyət kəsb edir.
**Açar sözlər:**
*İslam, hoşgörü, Qurani-Kərim, Sünnə, dinlərarası dialoq, zimmilər, məzhəb müxtəlifliyi, tolerantlıq.*

## Giriş

Humanizm anlayışı insan münasibətlərində qarşılıqlı hörmət, fərqliliklərin tanınması və onların qorunması ilə bağlı dərin fəlsəfi bir məzmun daşıyır. İstər fərdi, istərsə də ictimai müstəvidə humanizm fərqli inanclara, düşüncələrə və həyat tərzlərinə qarşı anlayış və hörmətin nümayişi kimi qəbul edilir. Bu baxımdan hoşgörü yalnız şəxsi bir əxlaqi davranış nümunəsi deyil, eyni zamanda ictimai-siyasi sabitliyin, hüquqi ədalətin və mədəni inkişafın əsas sütunlarından biri kimi çıxış edir (Rawls, A Theory of Justice, 1971).

Humanizm sadəcə olaraq, başqasının mövcudluğunu görməzdən gəlmək deyil, əksinə, onun varlığını qəbul etmək və yaşamaq haqqını müdafiə etmək iradəsidir. Burada əsas məqam ondan ibarətdir ki, hoşgörü anlayışı güc balansı ilə əlaqəlidir: bir tərəf digəri üzərində məhdudlaşdırma

[1] Babazade, Z. PhD in Philology, Nakhchivan State University, Azerbaijan. Email: zaminbabazade92@gmail.com. ORCID: https://orcid.org/0009-0003-1395-2545.

imkanına malik olduğu halda, bundan istifadə etməməyi şüurlu seçim olaraq qəbul edir (Walzer, On Toleration, 1997). Bu isə hoşgörünün yalnız passiv bir dözümlülük deyil, əksinə, sosial və mənəvi məsuliyyətin fəal təzahürü olduğunu göstərir.

"İslam" sözünün mənşəyində "sülh", "barış" və "uzlaşma" anlayışlarının olması, dinin mahiyyətində müsamahakarlıq və hoşgörünün dayandığını açıq şəkildə göstərir. Bu mənşəvi bağlılıq İslamın sülhsevər və əhatəli bir din olduğuna dəlalət edir.

Hoşgörünün həddindən artıq olması da, yoxluğu da zərərli nəticələr doğura bilər. Bu tarazlıq hoşgörünün ictimai barış və uyğunluq üçün nə dərəcədə həyati olduğunu ortaya qoyur. Bu məqalənin məqsədi İslamın hoşgörü anlayışına verdiyi əhəmiyyəti, onun müqəddəs mətnlərdəki yerini, tarixi tətbiqlərini və günümüzdəki əksini akademik baxışla araşdırmaq və bu çoxşaxəli anlayışın mahiyyətini üzə çıxarmaqdır.

**Qurani-kərim və sünnədə humanizm**

İslam dinində humanizmin əsasları Qurani-Kərimin ayələrində öz əksini tapır. Bu ayələrdə dini məcburiyyətin qadağan olunması, inanc azadlığı və fərqli düşüncələrə hörmət kimi prinsiplər vurğulanır. Bakara surəsi, 2:256: "Dində məcburiyyət yoxdur. Artıq doğruluq ilə azğınlıq bir-birindən ayrılmışdır." Bu ayə insanın inanc azadlığını açıq şəkildə təsbit edir və iman qəbulunun yalnız könüllü şəkildə mümkün olduğunu göstərir (Bəqərə suresi 256. Ayet Meali və Təfsiri, 2025). Kafirun surəsi, 109:6: "Sizin dininiz sizə, mənim dinim mənə." Bu ayə dini müxtəlifliyə hörmətin və qarşılıqlı barış şəraitində yanaşı yaşama prinsipinin simvolu hesab olunur (İslam'da Hoşgörü və İnanç Özgürlüğü, 2025). Yunus surəsi, 10:99: "Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. Beləykən, sənmi insanları iman gətirənə qədər məcbur edəcəksən?" Burada ilahi iradənin insanlara seçim azadlığı verdiyi, peyğəmbərlərin vəzifəsinin isə təbliğ və nəsihət olduğu vurğulanır (Kur'an Açısından Din Özgürlüğünün Temelleri – İSAM, 2013).Ali-İmran surəsi, 3:159: "Allahın rəhməti sayəsində sən onlara qarşı yumşaq davrandın. Əgər sən sərt və kobud olsaydın, onlar sənin yanından uzaqlaşardılar..."Bu ayə dini təbliğdə yumşaqlığın, empatiyanın və humanist yanaşmanın əsas olduğunu göstərir (Ömer Nasuhi Bilmen Təfsiri, 2025).

Digər ayələr də humanizmin fərdi mənəvi inkişafla əlaqəsini vurğulayır: "...qəzəblərini boğan, insanları bağışlayanlar..." (Ali-İmran, 3:134), "Bağışla, yaxşılığı əmr et, cahillərə fikir vermə." (Əraf, 7:199). Bu ayələr İslamın yalnız inanc azadlığını deyil, həm də ictimai münasibətlərdə humanist davranışı təşviq etdiyini sübut edir.

**Sünnədə Humanizm və Hz. Peyğəmbərin Nümunəsi**

Hz. Peyğəmbərin (s.ə.s.) həyatı insanlara qarşı mərhəmət, bağışlama və alicənablıq nümunələri ilə zəngindir. Hz. Aişə rəvayət edir: "O, kobud danışmaz, insanlarla bazarda mübahisə etməz, pisliyə pisliklə cavab verməzdi, əksinə, bağışlayar və mərhəmətlə davranardı" (Hz. Peygamber'in Farklı Fikir ve Davranışlara Yaklaşımı – DergiPark, 2025).

Peyğəmbərin məşhur kəlamlarından biri belədir: “Güclü insan güreşdə qalib gələn deyil, əsil güclü qəzəbi zamanı özünə hakim olandır.” Bu, humanizmin kökündə daxili mənəvi tərbiyə və nəfsin cilovlanmasının dayandığını göstərir.

Medinəyə hicrətdən sonra hazırlanan “Mədinə sazişi”də İslamda humanizmin hüquqi təcəssümüdür. Bu müqavilə müxtəlif dini qruplara (müsəlmanlar, yəhudilər və başqaları) öz inancını sərbəst yaşamaq imkanı tanımış, ictimai təhlükəsizlik və birlik prinsipini təmin etmişdir (Medinə Vesikası: “Öteki”ne Tahammül mü, Hoşgörü mü? – DergiPark, 2025).

Hz. Peyğəmbərin Necran xristianlarına məsciddə ibadət icazəsi verməsi isə dinlərarası hörmətin bariz nümunəsidir. Bu hadisə ibadət azadlığının və dini tolerantlığın Peyğəmbər təcrübəsindəki yeri baxımından xüsusi əhəmiyyət daşıyır.

Qeyri-müsəlmanlarla münasibətlər və zimmi statusu

**Əhl-i Kitab və Zimmi anlayışı**

İslam cəmiyyətlərində qeyri-müsəlmanlarla münasibətlər Qurani-Kərim və Sünnədəki humanist prinsiplər çərçivəsində formalaşmışdır. Bu çərçivənin əsas anlayışlarından biri “əhl-i kitab” (yəni Tövrat, Zəbur və İncil kimi səmavi kitablara iman edənlər) və digəri isə “Zimmi” anlayışıdır.

Zimmi termini İslam coğrafiyasında müqavilə əsasında daimi yaşama hüququ qazanmış qeyri-müsəlmanları ifadə edir. Onların hüquq və vəzifələri “Zimmet müqaviləsi” ilə müəyyən olunmuşdur (İslam Hukukunda Zimmet Sözleşmesi – DergiPark, 2025). Bu müqavilə zimmilərə dövlət himayəsi, əvəzində isə müəyyən sosial və maliyyə öhdəlikləri verirdi.

**Zimmilərin hüquqları**

İslam hüququnda zimmilərin bir sıra əsas hüquqları təsbit olunmuşdur ki, onlar belədir:

Can və mal təhlükəsizliyi: Zimmilər dövlətin qoruması altındadır və onların mülkiyyət hüququ təmin olunur.

Din və ibadət azadlığı: Onlar zorla müsəlman edilməz və öz ibadətlərini sərbəst şəkildə icra edə bilərlər (Medinə Vesikası, 2025).

Təhsil hüququ:Öz uşaqlarını öz inanclarına uyğun olaraq təhsil etdirə bilərlər.

Səyahət və yaşayış hüququ: Müqəddəs bölgələr (Məkkə və Mədinə kimi) istisna olmaqla, digər ərazilərdə sərbəst hərəkət edə bilərlər.

**Zimmilərin vəzifələri**

Zimmilərin əsas vəzifələri isə bunlardır:

Cizyə vergisi: Hər yetkin kişi qeyri-müsəlman dövlətə illik vergi ödəyirdi. Bu vergi qadınlardan, uşaqlardan, kasıblardan və xəstələrdən alınmırdı (İslam Hukukunda Zimmet Sözleşmesi, 2025).

Müsəlmanların dəyərlərinə hörmət: Müsəlman qadınla evlənməmək, ictimai məkanlarda müsəlmanları təhqir etməmək, şərab və donuz ətini nümayişkaranə istehlak etməmək kimi qaydalar mövcud idi.

Sosial və memarlıq qaydaları: Ev və ibadətgahların hündürlüyünün məhdudlaşdırılması və yeni məbədlərin tikintisinin dövlət icazəsinə bağlı olması kimi məhdudiyyətlər qoyulmuşdu (Osmanlı yönetiminde Gayrimüslimler – TR724, 2025).

İslam sivilizasiyaları tarixində humanist yanaşmanın bariz nümunələri vardır:

Endülüs: VIII–XV əsrlərdə müsəlman, yəhudi və xristianların yanaşı yaşadığı multikultural mühit formalaşmışdır. Burada yəhudilər dövlət vəzifələrində işləyə bilmiş, elm və mədəniyyətin inkişafına töhfə vermişlər (Endülüs Gayrimüslimlerinin Sosyo-Kültürel Hayatı – DergiPark, 2025).

Osmanlı İmperiyasında Millet Sistemi: Qeyri-müsəlman icmalar öz daxili işlərində (təhsil, ibadət, ailə hüququ) geniş muxtariyyətə sahib olmuşdur. Tanzimat və İslahat Fərmanları ilə hüquqi bərabərlik prinsipi gücləndirilmiş, cizyə vergisi ləğv edilmişdir (Millet – Vikipediya, 2025).

Devşirme sistemi: Osmanlı dövründə bəzi hallarda xristian uşaqlar zorla alınaraq müsəlmanlaşdırılır və dövlət xidmətinə qəbul olunurdu. Bu istisna “dində məcburiyyət yoxdur” prinsipinə zidd olaraq tarixdə tənqid edilmişdir.

**Məzhəblərarası humanizm və islamda fikir müxtəlifliyi**

İslam hüququ tarixində müxtəlif fiqh məktəblərinin (Hənəfi, Maliki, Şafei, Hənbəli və s.) mövcudluğu, hüquqi və dini baxımdan zəngin bir mühit yaratmışdır. Bu müxtəliflik “ixtilaf” anlayışı ilə ifadə olunur. Klassik alimlər ixtilafı dini zəiflik deyil, əksinə ümmət üçün bir “rəhmət” olaraq görmüşlər (İHTİLÂF – TDV İslam Ansiklopediyası, 2025). İmam Malikə aid edilən “Alimlərin ixtilafı Allahın ümmətə rəhmətidir” fikri bu yanaşmanı əks etdirir. Bu, fiqhi baxımdan fərqliliklərin insanlara asanlıq gətirdiyini və dini həyatın çevikliyini artırdığını göstərir.

İxtilafların səbəbləri arasında bunlar yer alır:

Metodoloji fərqliliklər: Qurani-Kərim və hədislərin təfsiri, qiyas və istihsan kimi hüquqi metodların qəbulunda fərqlər.

Mətnlərin anlaşılması: Ayə və hədislərin məna və məqsəd baxımından müxtəlif şərhləri.

Hadis rəvayətləri: Müxtəlif alimlərə çatmayan və ya fərqli qəbul olunan hədislərin mövcudluğu.

Zaman və məkan faktorları: Sosial-iqtisadi şəraitin dəyişməsi ilə yeni ictihad ehtiyaclarının yaranması. Memlük dövründə hər məhkəmədə dörd müxtəlif məzhəb qazisinin təyin olunması, məzhəblərarası humanizmin hüquqi praktikaya necə yansıdığını göstərən tarixi bir nümunədir.

**Təsəvvüfdə humanizm**

Təsəvvüf ənənəsi humanizmi daha çox mənəvi dəyərlər üzərindən inkişaf etdirmişdir. Sufi mütəfəkkirlər insan qüsurlarını görməməzlikdən gəlməyi, bağışlamağı və mənəvi yüksəlişi əsas prinsiplərdən saymışlar. Hacı Bəktəş Vəlinin "Yetmiş iki milləti bir gör, onların etdiklərindən dolayı qınama" prinsipi, təsəvvüfun humanist yanaşmasının mühüm ifadəsidir (Təsəvvüfi Kültürde Hoşgörü – DergiPark, 2025). Sərrac, Kəlabazi və Quşeyri kimi sufi alimləri təsəvvüfu Əhli-Sünnə prinsipləri ilə uzlaşdırmağa çalışaraq, humanizmi həm mənəvi, həm də ictimai harmoniya üçün əsas vasitə kimi təqdim etmişlər.

**Sünni–şiə münasibətlərində humanizm və qarşıdurmalar**

İslam tarixində Sünni–Şiə münasibətləri həm gərginliklər, həm də barış cəhdləri ilə müşahidə olunmuşdur. Qarşıdurma dövrləri: Əməvilər və Abbasilər zamanında siyasi mübarizələr, XVI əsrdə isə Səfəvilərin şiəliyi dövlət dini elan etməsi və Osmanlı ilə Səfəvilər arasındakı qarşıdurmalar məzhəbi parçalanmanı dərinləşdirmişdir (Nasil bir Şii–Sünni Birlikteliği? – İSAM, 2012).

Barış təşəbbüsləri: XVIII əsrdə Nadir şahın Cəfəriliyi beşinci rəsmi məzhəb kimi qəbul etdirmək təşəbbüsü, II Əbdülhəmidin "İttihad-ı İslam" siyasəti və Cəmaləddin Əfqaninin ümummüsəlman birliyi ideyası, məzhəblərarası humanizmi gücləndirmək məqsədi daşımışdır.

Müasir dövr: 2004-cü ildə elan olunan Amman Mesajı həm Sünni, həm Şiə, həm də İbadi ənənələri daxil olmaqla 8 İslam məzhəbini tanımış, qarşılıqlı təkfir (küfrlə ittiham) praktikasını qadağan etmişdir (Amman Message – Official Site, 2025).

Çox üzücü haldır ki, bu gün də bu qarşıdurmalar və fikri ziddiyyətlər qalmaqdadır və islamı zəiflətməyə və onun tərəfdarlarını yıpratmağa davam edir.

**Dinlərarası dialoqun əhəmiyyəti**

Qloballaşma və mədəniyyətlərarası qarşılıqlı əlaqələrin sürətlə artdığı müasir dövrdə, dinlərarası dialoq anlayışı İslam dünyası üçün xüsusi əhəmiyyət kəsb edir. Humanizm prinsiplərinə əsaslanan bu dialoq, fərqli inanc və mədəniyyətlər arasında qarşılıqlı anlaşmanı, hörməti və əməkdaşlığı gücləndirməyi hədəfləyir.

Mövlana Cəlaləddin Ruminin məşhur sözü — "Bir ayağım şəriətdədir, digər ayağım isə yetmiş iki millətlə birlikdədir" — dinlərarası humanist yanaşmanın simvolik ifadəsi hesab olunur (Hoşgörü və Diyalog – F. Gülen, 2025).

Beynəlxalq təşkilatlar da bu istiqamətdə mühüm təşəbbüslər irəli sürür. Məsələn, BMT-nin Baş Qərargahında keçirilən "Müsəlman Cəmiyyəti ilə Əlaqələrin Gücləndirilməsi: Dialoqu Təşviq Etmək, Anlamaq, Humanizm və Qəbul" adlı toplantıda, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər dinlərarası dialoqun sülh və əməkdaşlıq üçün həlledici rolunu vurğulamışlar (BAE, 2025).

Qurani-Kərimdə Dialoq Əsasları

Qurani-Kərimdə dinlərarası dialoqu dəstəkləyən ayələr mövcuddur. Mumtəhine surəsi, 60:8 belə buyurur: "Allah sizi din mövzusunda sizinlə vuruşmayan və sizi yurdlarınızdan çıxarmayanlara yaxşılıq etməyi və onlara ədalətlə yanaşmağı qadağan etməz."

Bu ayə göstərir ki, humanizm və dialoq yalnız dini bir seçim deyil, həm də ilahi bir tələbdir.

Mübahisələr və Tənqidlər

Bununla belə, dinlərarası dialoq anlayışı İslam dünyasında birmənalı qarşılanmır. Bəzi çevrələr bu təşəbbüsləri dini dəyərlərin zəifləməsi təhlükəsi kimi qəbul edir. Hətta bəzi mühafizəkar dairələr dialoq layihələrini "İslam əqidəsinə qarşı plan" kimi qiymətləndirmişlər (LÂ – Dinlərarası Diyaloqa Rəddiyə, 2025).

Dünya Müsəlman Alimlər Birliyi isə dialoqun "əsas prinsiplərdən güzəşt vermək demək olmadığını" vurğulamışdır. Onların fikrincə, humanizm dini sabitliklə uzlaşmalı, lakin əsas inancları sarsıtmamalıdır (Anadolu Ajansı, 2025).

**Humanizmin müasir perspektivi**

Müasir dövrdə dinlərarası dialoq təkcə teoloji söhbət məkanı deyil, həm də qlobal problemlərin həllində praktiki əməkdaşlıq vasitəsi kimi qəbul olunur. Terrorizm, müharibələr, yoxsulluq və diskriminasiya kimi problemlərin həllində müxtəlif dinlərin birgə fəaliyyəti humanizmin praktik gücünü nümayiş etdirir.

**Humanizmin sərhədləri, radikalizm və nəticə**

**Humanizmin sərhədləri**

İslamda humanism əsas prinsipdir, lakin mütləq və sərhədsiz deyil. Əks halda bu, ictimai nizamı və ədaləti poza bilər. Qurani-Kərim və Sünnə göstərir ki, humanizm ədalət, hüquq və ictimai sabitliklə tarazlaşdırılmalıdır. Hz. Peyğəmbərin (s.ə.s.) nümunəsində humanizmin sərhədləri aydın şəkildə görünür: İslam təbliğini açıq şəkildə əngəlləyənlərə qarşı güzəşt edilməmişdir. Cinayət və hüquq məsələlərində şəxsi bağışlama deyil, qanunun aliliyi üstün tutulmuşdur. Peyğəmbərin "Qızım Fatimə belə oğurluq etsəydi, onun da əlini kəsərdim" kəlamı hüququn ədalət qarşısında fərq tanımadığını göstərir (Müsamaha / Hoşgörü – Diyanet, 2025).

İrqçilik və qəbiləçilik (asabiyyət) qəbul edilməmişdir.

Kul haqqı məsələsində son dərəcə ciddi davranılmış, heç bir güzəştə yol verilməmişdir.Bu, İslamda humanizmin sərhədlərinin ilahi qanun, ictimai nizam və etik dəyərlərlə müəyyənləşdirildiyini göstərir.

**Radikalizm və humanizmin istismarı**

Tarix boyu bəzi qruplar humanizm prinsipini yanlış şərh etmiş və ya tamamilə inkar etmişlər. Xaricilər və Haşşaşilər kimi radikal qruplar fanatik yanaşmaları ilə günahsız insanların həyatına son vermiş, dini prinsipləri zorakılığa alət etmişdir. Müasir dövrdə isə Boko Haram və İŞİD kimi terror təşkilatları Qurani-Kərimi yanlış təfsir edərək zorakılığı legitimləşdirməyə çalışmışlar (Radikal Dini Qrupların Çıkış Sebepleri – JOSHAS, 2025).

Radikalizmin yaranma səbəbləri həm daxili, həm də xarici amillərlə bağlıdır:

1. Daxili amillər: elmi düşüncə boşluğu, lider kultu, fanatizm.
2. Xarici amillər:siyasi təzyiq, işğallar, ayrı-seçkilik.

Belə qrupların fəaliyyəti İslamın humanizm prinsiplərinə zidd olmaqla yanaşı, dinin barışçı mahiyyətinə də zərər vurur.

**Nəticə və yekun dəyərləndirmə**

Bu məqalə göstərir ki, İslamda humanizm Qurani-Kərim və Sünnəyə əsaslanan köklü prinsiplərə söykənir. Hz. Peyğəmbərin həyat təcrübəsi, Medinə Sazişi və tarixi tətbiqlər (Endülüs, Osmanlı "millet" sistemi və s.) bunun ən bariz nümunələridir.

Qeyri-müsəlmanlarla münasibətlərdə Zimmi statusu onlara həm hüquqlar, həm də öhdəliklər vermişdir. Məzhəblərarası münasibətlərdə fikir müxtəlifliyi "rəhmət" olaraq qəbul edilmiş, Amman Mesajı kimi təşəbbüslərlə müasir dövrdə məzhəbi barış gücləndirilmişdir. Dinlərarası dialoqda humanizm qlobal sülh və qarşılıqlı anlaşma üçün vacib vasitə kimi önə çıxır. Lakin humanizm sərhədsiz deyil; hüquq, ədalət və ictimai sabitlik prinsipləri ilə məhdudlaşdırılır. Tarixdə və müasir dövrdə radikal qrupların ortaya çıxması bu prinsiplərin yanlış təfsir və sui-istifadəsinin nəticəsi olmuşdur.

Nəticə etibarilə, İslam dünyasının gələcəyi üçün əsas vəzifə humanizmin əsil dəyərini qorumaq, radikalizmin səbəbləri ilə mübarizə aparmaq və dinlərarası əməkdaşlığı gücləndirməkdir. Bu yanaşma yalnız İslam dünyasında deyil, bütün bəşəriyyət üçün qlobal sülhə və qarşılıqlı anlaşmaya töhfə verə bilər.

**Ədəbiyyat siyahısı**

Bilmen, Ö. N. (2025). Bakara Suresi 256. Ayet Meali ve Tefsiri. https://www.bakarasuresi.gen.tr

Hashimov Hasangulu, A. (2025). Socio-political reality in historical narratives about the Karabakh khanate. *Revista Universidad y Sociedad*, *17*(4).

Veliyev, E. (2025). Mədəniyyət və dilin müasir dövrdəki inkişafı və qarşılıqlı təsiri. *Global Spectrum of Research and Humanities*, *2*(3), 74-79.

İZZETULLAKIZI, G. A. (2009). MOLLA NASRETTİN'DE CELİL MEMMETKULUZADE'YE MAHSUS MAHLASLAR. *Journal of International Social Research*, *1*(6).

Diyanet İşleri Başkanlığı. (2025). Müsamaha / Hoşgörü. https://bilecik.diyanet.gov.tr

Diyanet İşleri Başkanlığı. (2025). Kur’an Açısından Din Özgürlüğünün Temelleri. https://isamveri.org

DergiPark. (2025). Hz. Peygamber’in Farklı Fikir ve Davranışlara Yaklaşımı. https://dergipark.org.tr

DergiPark. (2025). Medine Vesikası: “Öteki”ne Tahammül mü, Hoşgörü mü?. https://dergipark.org.tr

DergiPark. (2025). İslam Hukukunda Zimmet Sözleşmesi. https://dergipark.org.tr

DergiPark. (2025). Endülüs Gayrimüslimlerinin Sosyo-Kültürel Hayatı. https://dergipark.org.tr

TR724. (2025). Osmanlı Yönetiminde Gayrimüslimler. https://www.tr724.com

Wikipedia. (2025). Millet (Osmanlı İmparatorluğu). https://tr.wikipedia.org/wiki/Millet_(Osmanlı_İmparatorluğu)

TDV İslam Ansiklopedisi. (2025). İhtilaf. https://islamansiklopedisi.org.tr

DergiPark. (2025). Təsəvvüfi Kültürde Hoşgörü. https://dergipark.org.tr

İSAM. (2012). Nasıl bir Şii-Sünni Birlikteliği?. https://isamveri.org

Amman Message. (2004). The Official Amman Message. https://ammanmessage.com

Gülen, F. (2025). Hoşgörü ve Diyalog. https://fgulen.com

WAM. (2025). BAE, Dinlerarası Diyalogda Toplantı. https://www.wam.ae

Anadolu Ajansı. (2025). Dünya Müslüman Alimleri Birliği’nden açıklama. https://www.aa.com.tr

Avukat Baran Doğan. (2025). Halkı Kin ve Düşmanlığa Tahrik ve Dini Değerleri Aşağılama Suçu. https://barandogan.av.tr

DergiPark. (2025). Fanatizm Olgusu ve Dini Kült Yapılarda. https://dergipark.org.tr

JOSHAS. (2025). Radikal Dini Grupların Çıkış Sebepleri. Journal of Social, Humanities and Administrative Sciences. https://journalofisocial.com

DergiPark. (2025). İslam Dünyasının Geri Kalma Nedenleri Üzerine Bir Analiz. https://dergipark.org.tr

Rawls, J. (1971). A theory of justice. Cambridge, MA: Harvard University Press.

Walzer, M. (1997). On toleration. New Haven, CT: Yale University Press.

Received: 11.09.2025
Revised: 20.09.2025
Accepted: 28.09.2025
Published: 02.10.2025